PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.38-48
https://doi.org/10.30546/30015.2025.4.021

# ZƏFƏR GÜNÜNÜN MƏDƏNİ TƏQDİMAT MEXANİZMLƏRİ VƏ İCTİMAİ YADDAŞIN FORMALAŞMASINDA İÇƏRİŞƏHƏRİN ROLU

**G.F. Nəzərova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: gulnar.nazarova.92@mail.ru

**Xülasə.** Bu məqalə 2020-ci il Vətən müharibəsinin simvolik sonu olan Zəfər Gününün mədəni təqdimat formalarını və onun ictimai yaddaşda yerini kulturoloji aspektdən təhlil edir. Məqsəd, Zəfər Gününün milli-mədəni yaddaşın yenidən qurulmasında və tarixi təcrübələrin simvolik təcəssümündə rolunu müəyyənləşdirməkdir. Tədqiqat göstərir ki, Zəfər Günü yalnız hərbi qələbənin təntənəsi deyil, həm də ictimai həmrəyliyin, milli qürurun və mədəni identikliyin bərpası prosesinin mühüm mərhələsidir. İçərişəhər kimi tarixi məkanlarda keçirilən tədbirlər, qədim mədəni mühiti çağdaş dövlətçilik ideyası ilə birləşdirərək, milli yaddaşın mədəni konstruksiyasında mühüm rol oynayır.

**Açar sözlər:** Zəfər Günü, İçərişəhər, ictimai yaddaş, mədəni təqdimat, kulturoloji analiz, milli identiklik.

## Giriş

Azərbaycan Respublikasında noyabrın 8-də qeyd olunan Zəfər Günü yalnız 2020-ci ilin 44 günlük Vətən müharibəsi nəticəsində əldə edilmiş hərbi-siyasi qələbənin xatırlanması funksiyası ilə məhdudlaşmır. Bu fenomen həm də milli identikliyin, kollektiv mənəvi dəyərlərin, vətənpərvərlik ideologiyasının və dövlətçilik düşüncəsinin institusional səviyyədə yenidən formalaşdırılmasının, həmçinin milli mənəviyyatın vizual, performativ və simvolik kanallar vasitəsilə təcəssüm etdirilməsinin strateji platforması kimi çıxış edir. Belə bir kontekst Zəfər Gününün yalnız siyasi və hərbi uğurun təntənəsi kimi deyil, həm də mədəni, sosial və fəlsəfi səviyyədə dönüş nöqtəsi kimi qiymətləndirilməsini mümkün edir və milli tarixi diskursun yenidən konseptuallaşdırılmasına xidmət edir.

Zəfər Gününün mədəni təqdimatı çərçivəsində keçirilən sənədli, elmi, bədii və ictimai tədbirlər, sərgilər, konsertlər və digər performativ aksiyalar tarixi yaddaşın sistemli şəkildə canlandırılmasını, kollektiv emosional həmrəyliyin gücləndirilməsini və gələcək nəsillərə ötürülməsini təmin edir. Xüsusilə İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu kimi tarixi və mədəni məkanlarda bu təqdimatlar özünəməxsus əhəmiyyət daşıyır ki, qədim memarlıq abidələri, qala divarları və daş küçələr üzərində reallaşan rəsmi mərasimlər, sənət performansları və ictimai aksiyalar zamanın ardıcıllığını, milli varisliyi və tarixi davamlılığı təsdiq edən kulturoloji simvollar kimi çıxış edir. Bu məkanın institusional və estetik potensialı

Zəfər Gününün ictimai yaddaşın formalaşması, milli identikliyin vizual-emosional və fəlsəfi səviyyədə təcəssüm etdirilməsi baxımından strateji platformaya çevrilməsinə imkan verir.

Müasir dövrdə qloballaşmanın sürətlənməsi milli-mədəni yaddaşın qorunması və təbliği məsələsini daha da aktuallaşdırır və Zəfər Gününün təqdimatı milli identikliyin bərpası, dövlətçilik ideyasının gücləndirilməsi və tarixi ədalətin sosial-mədəni səviyyədə təsdiqi baxımından strateji əhəmiyyət daşıyır. Bu baxımdan, tədqiqat yalnız Azərbaycan ictimaiyyətində Zəfər Gününün sosial-mədəni və ideoloji funksiyalarını, həmçinin kollektiv yaddaşın institusional və vizual müstəvidə formalaşma mexanizmlərini öyrənmək üçün aktualdır, həm də milli tarixi diskursun, dövlətçilik yaddaşının və mədəni identikliyin qorunması və inkişaf etdirilməsi istiqamətində elmi-analitik təhlillər aparmaq üçün fundamental platforma rolunu oynayır.

Beləliklə, İçərişəhərdə Zəfər Gününün mədəni təqdimatı, ictimai şüurda estetik-fəlsəfi səviyyədə təcəssümü və postmünaqişə dövründə milli həmrəyliyin formalaşması baxımından Azərbaycan Respublikasının müasir siyasi-mədəni tarixində strateji əhəmiyyət kəsb edir və bu fenomenin sistemli elmi tədqiqi həm mədəniyyət, həm tarix, həm də sosial-fəlsəfi tədqiqatların əsas prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

Tədqiqatın obyekti Azərbaycan Respublikasında Zəfər Gününün mədəni təqdimatı çərçivəsində İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda həyata keçirilən müxtəlif sərgi, konsert, performans və digər ictimai-mədəni tədbirlər əsasında formalaşan təzahürləridir. Obyekt eyni zamanda tarixi-mədəni məkanın ideoloji, estetik və sosial funksiyalarının Zəfər Gününün təqdimatına təsirini və bu təqdimatların ictimai şüurda kollektiv yaddaşın institutlaşmasında rolunu əhatə edir.

Tədqiqatın predmeti İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən Zəfər Gününə həsr olunmuş tədbirlərin kulturoloji, ideoloji və sosial-mənəvi aspektləridir. Bu çərçivədə predmet tarixi-mədəni məkanda həyata keçirilən ictimai-mədəni təşəbbüslərin vizual və performativ vasitələrlə vətənpərvərlik dəyərlərinin və kollektiv yaddaşın formalaşdırılmasında oynadığı rolun sistemli və elmi təhlilini əhatə edir. Eyni zamanda, predmet keçirilən tədbirlərin İçərişəhərin arxetipik və simvolik məkansal potensialından istifadə etməklə ictimai şüurda estetik, ideoloji və sosial funksiyaların necə icra olunduğunu, həmçinin bu tədbirlərin müasir Azərbaycan cəmiyyətində milli mənəviyyatın, tarixi davamlılığın və sosial həmrəyliyin institutlaşmasında strateji əhəmiyyətini araşdırır.

Tədqiqatın əsas məqsədi Zəfər Gününün kulturoloji təqdimat mexanizmlərini sistemli şəkildə təhlil etmək, bu təqdimat vasitəsilə ictimai yaddaşın formalaşma prosesini araşdırmaq

və İçərişəhərin bu prosesdəki rolunu müəyyənləşdirməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

1. Zəfər Gününün tarixi, siyasi və ideoloji əsaslarını araşdırmaq;
2. İçərişəhərdə keçirilən Zəfər Gününə aid tədbirlərin kulturoloji və simvolik təhlilini aparmaq;
3. Mədəni siyasət kontekstində Zəfər Gününün kulturoloji təsir mexanizmlərini müəyyənləşdirmək;
4. Zəfər Gününün mədəni təcəssümündə milli identikliyin ifadə olunma yollarını araşdırmaq.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Zəfər Gününə həsr olunmuş mədəni tədbirlər ilk dəfə olaraq İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu kontekstində kulturoloji, ideoloji və sosial-fəlsəfi aspektlərdə kompleks şəkildə təhlil edilir, bu da hadisənin məkanla qarşılıqlı təsir mexanizmlərini və ictimai yaddaşın formalaşmasındakı funksional rolunu elmi müstəviyə gətirir. Bununla yanaşı, İçərişəhərin tarixi-simvolik məkan kimi Zəfər Gününün mədəni təcəssümündə estetik, ideoloji və institusional göstəricilər vasitəsilə milli identiklik və dövlətçilik ideyasının təzahür formalarının sistemli şəkildə araşdırılması tədqiqatın əsas elmi yeniliyini təşkil edir.

Tədqiqat kulturoloji, simvolik və sosial-mədəni təhlil metodlarına əsaslanaraq həyata keçirilmişdir. Məqalənin hazırlanmasında məkan və məzmun yönümlü analiz yanaşmaları tətbiq edilmiş, hadisələrin kulturoloji interpretasiyası aparılmışdır. Empirik baza kimi elmi məruzələr, dövlət sənədləri, mediada dərc olunmuş materiallar, həmçinin İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəsmi məlumatları və ictimaiyyət üçün təqdim olunan mənbələrdən istifadə olunmuşdur.

**Zəfər gününün təsis edilməsi və tarixi əhəmiyyəti**

Ermənistan–Azərbaycan münaqişəsinin 1980-ci illərin sonlarından etibarən formalaşan müasir mərhələsi və 2020-ci ildə Azərbaycanın əldə etdiyi tarixi hərbi uğur, milli tariximizdə dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu kontekstdə Zəfər Günü Azərbaycan xalqının qazandığı qələbənin əbədiləşdirilməsi məqsədilə təsis edilmiş və milli rəmz statusu qazanmışdır.

Ermənistan-Azərbaycan münaqişəsinin müasir fazası 1987-ci ilin sonlarında Xankəndi və Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı yönəlmiş təzyiq və silahlı hücumlarla özünü göstərmişdir. Bu proses nəticəsində çoxsaylı soydaşlarımız doğma torpaqlarından didərgin düşmüşdür. 1988-ci il fevralın 20-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Sovetinin iclasında qəbul edilən qərar ilə vilayətin Azərbaycanın tərkibindən çıxarılması və Ermənistan SSR-ə birləşdirilməsi tələbi irəli sürülmüşdür. Eyni il Əsgəran

istiqamətində baş verən hərbi qarşıdurmalar nəticəsində iki azərbaycanlı gənc həyatını itirmiş, beləliklə, münaqişənin ilk qurbanları tarixə düşmüşdür. 1991-1993-cü illərdə Ermənistan xarici dəstək və separatçı qüvvələrin iştirakı ilə Dağlıq Qarabağ və ətraf rayonları işğal etmişdir. 1992-ci ilin fevralında baş vermiş Xocalı faciəsi, may ayında Şuşa və Laçının işğalı, 1993-cü ildə isə Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının düşmən tərəfindən ələ keçirilməsi həmin dövrün ən faciəli hadisələrini təşkil etmişdir. Eyni zamanda, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal çıxmasını tələb etmiş, lakin bu qərarlar icra edilməmişdir. 1994-cü ildə Bişkekdə atəşkəs imzalanmış, lakin Ermənistan zaman-zaman bu razılaşmanı pozmaqda davam etmişdir.

2016-cı ilin aprel döyüşləri və 2020-ci ildə Tovuz istiqamətində baş verən təxribatlar Ermənistanın işğalçı siyasətini davam etdirmək niyyətini açıq şəkildə nümayiş etdirmişdir. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində həyata keçirdiyi təxribat, davamında isə 27 sentyabrda cəbhə boyu başlanan hücumlar Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək məqsədli hərbi əməliyyatlarına gətirib çıxarmışdır [6, s.7-8].

Azərbaycan Ordusu 44 gün ərzində genişmiqyaslı hərbi əməliyyatları uğurla həyata keçirərək Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Suqovuşan və digər strateji əraziləri düşməndən azad etmişdir. Həlledici məqam isə Şuşanın işğaldan azad olunması ilə müşahidə olunmuşdur. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış bəyanat nəticəsində Ağdam, Kəlbəcər və Laçın rayonları geri qaytarılmış, beləliklə, Azərbaycanın ərazi bütövlüyü təmin olunmuşdur [6, s.35; 42].

Azərbaycan xalqı üçün 2020-ci ilin ən mühüm hadisəsi, uzun illər ərzində işğal altında qalmış ərazilərin azad edilməsi olmuşdur. 27 sentyabrda başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistanı məğlub edərək işğalçı siyasətə son qoymuşdur. Bu əməliyyatlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında başa çatmış, 30 ilə yaxın müddət ərzində işğal altında qalmış Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, həmçinin yüzlərlə kənd və strateji yüksəkliklər azad edilmişdir. İşğaldan azad olunmuş rayonlar Ağdam, Kəlbəcər və Laçın ilə tamamlanmışdır. Döyüşlər zamanı düşmənin 3,8 milyard dollarlıq hərbi texnikası məhv edilmiş və ya qənimət götürülmüşdür. 44 günlük müharibə ərzində 2800-dən çox şəhid vermişik, lakin şəhidlərimizin qanı yerdə qalmamışdır [2].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 8 noyabr tarixi "Zəfər Günü" kimi təsis edilmişdir [1]. Bu qərar xalqın qəhrəmanlığını, milli həmrəyliyini və dövlətin qüdrətini əbədiləşdirmək məqsədini daşıyır.

Azərbaycan Ordusunun hərbi qələbəsini nümayiş etdirmək məqsədilə 10 dekabr 2020-ci il tarixində Bakıda Zəfər paradı keçirilmiş, paradda 3000-dən artıq hərbi şəxsi heyət, 150 hərbi texnika, müasir raket və artilleriya sistemləri nümayiş etdirilmişdir [2].

Zəfər Günü yalnız hərbi qələbənin simvolu deyil, həm də milli iradənin, dövlətçilik şüurunun və xalqın həmrəyliyinin təcəssümüdür. Bu gün şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, milli qürurun qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Qələbənin əbədiləşdirilməsi məqsədilə təsis olunan Zəfər Günü həm siyasi, həm ideoloji, həm də mədəni kontekstdə strateji rezonans yaradır. Dövlətin legitimliyinin möhkəmləndirilməsi və xalqın qələbə yaddaşının qorunması baxımından bu gün mühüm əhəmiyyətə malikdir. Beləliklə, Zəfər Günü Azərbaycan dövlətçilik tarixində yalnız bayram kimi deyil, həm də milli həmrəyliyin, tarixi ədalətin və strateji qələbənin rəmzi kimi möhkəmlənmişdir. Bu qələbə yalnız torpaqların azad olunması ilə məhdudlaşmır, eyni zamanda xalqın mənəvi və strateji triumfini ifadə edir.

Buna əsaslanaraq, ölkəmizin müxtəlif regionlarında, o cümlədən dövlət nəzarətində olan müəssisələr və muzey komplekslərində Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə çoxsaylı silsilə tədbirlərin keçirildiyi müşahidə olunmuşdur. Xüsusilə, Şəki Tarix-Diyarşünaslıq Muzeyində təşkil edilmiş "Şanlı Vətənim" sərgisi çərçivəsində 44 günlük Vətən müharibəsinin qəhrəmanlıq salnaməsinin detalları barədə geniş məlumat təqdim olunmuş və Şəki Uşaq İncəsənət Məktəbi şagirdlərinin yaradıcılığı əsasında hazırlanmış, şəhid portretlərinin daxil olduğu əl işləri nümayiş etdirilmişdir. Eyni zamanda, Şəki Dövlət Rəsm Qalereyası tərəfindən "Qarabağ Fatehləri" mövzusunda aparılmış ustad dərsi çərçivəsində şagirdlərə müharibə iştirakçılarının qəhrəmanlıq nümunələri və Vətən-milli birliyinin simvolik əhəmiyyəti barədə ətraflı məlumatlar təqdim edilmişdir. Lahıc Tarix-Diyarşünaslıq Muzeyində həyata keçirilmiş "Açıq qapı" günü çərçivəsində ziyarətçilərə Lahıcın tarixi, buradan çıxmış qəhrəman şəhidlərin həyatı və xidmətləri barədə ətraflı məlumat verilib. Bundan əlavə, Yuxarı Baş Milli Tarix-Memarlıq Qoruğunun təşəbbüsü ilə Şəki Xan Sarayı qarşısında keçirilmiş Zəfər Günü bayram tədbiri çərçivəsində İkinci Qarabağ Müharibəsinin gedişi, Azərbaycanın apardığı haqq savaşı barədə ətraflı məlumat təqdim edilmiş, tədbir isə musiqi proqramı ilə müşayiət olunmuşdur [8].

**İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin "8 Noyabr – Zəfər Günü"nə Həsr Olunmuş Tədbirlər Kompleksi: Mədəni və İdeoloji Kontekst**

Azərbaycan Respublikasının müasir dövlətçilik tarixində 8 Noyabr – Zəfər Günü milli qürurun, vətənpərvərlik ruhunun və tarixi ədalətin bərpasının simvolu kimi strateji, ideoloji və mənəvi əhəmiyyət daşıyan hadisə statusuna malikdir. Bu bayramın dövlət səviyyəsində qeyd

olunması, həmçinin ictimai şüurun formalaşdırılmasında mühüm rol oynayaraq dövlətin mədəni-siyasi ideologiyasının əsas komponentlərindən biri kimi çıxış edir. Zəfər Gününün rəsmi və mədəni tədbirlər vasitəsilə təcəssüm etdirilməsi həm kollektiv yaddaşın möhkəmləndirilməsi, həm də milli kimliyin mədəni diskursda ifadə olunması baxımından aktual əhəmiyyət kəsb edir. Bu kontekstdə İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu çərçivəsində 8 Noyabr münasibətilə təşkil edilmiş mədəni, elmi və sosial-humanitar tədbirlər kompleksi Zəfər Gününün institusional və mədəni təqdimatının əsas platformasını təşkil etmişdir. Həmin tədbirlər silsiləsinin əsas məqsədi Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Qələbənin mənəvi, siyasi və mədəni dəyərinin təbliği, şəhidlərin xatirəsinə ehtiramın ifadəsi, qazilərə ictimai minnətdarlığın nümayişi və hadisənin kollektiv mədəni yaddaşda institutlaşmasına töhfə vermək olmuşdur. Bu təşəbbüslər Zəfərin yalnız hərbi-siyasi aspektdə deyil, eyni zamanda milli ideya və vətənpərvərlik təfəkkürünün mədəni kodunda təcəssüm etdirilməsini hədəfləmişdir.

Bu ideoloji kontekst çərçivəsində İçərişəhər Muzey Mərkəzinin Zəfər Gününə həsr olunmuş mədəni-maarifləndirici tədbirlər kompleksi vasitəsilə Vətən müharibəsinin mənəvi və mədəni irsinin ictimai şüurda möhkəmləndirilməsinə strateji töhfə verməyi hədəfləmişdir. Tədbirlərin konseptual əsasını XXI əsrin ən əhəmiyyətli tarixi hadisələrindən biri – 30 il ərzində işğal altında qalmış Qarabağ torpaqlarının azad edilməsi və bu Qələbə uğrunda göstərilmiş fədakarlığın mədəni-tarixi və simvolik sistemdə təcəssümü təşkil etmişdir. Bu təşəbbüslər yalnız tarixi faktların xatırlanması ilə məhdudlaşmayaraq, həm də milli kimliyin vizual və performativ kanallar vasitəsilə kollektiv yaddaşda institutlaşmasını, dövlətçilik ideyasının və vətənpərvərlik dəyərlərinin estetik-fəlsəfi səviyyədə təqdimatını təmin etmişdir.

Bakı Fotoqrafiya Evində təşkil edilmiş “Cəbhədən xəbərlər” adlı mədəni-sənədli tədbir, Vətən müharibəsi dövrünün fotojurnalistika vasitəsilə ictimai yaddaşda sənədli təmsilini formalaşdırmaq məqsədini daşıyır. Tədbirin ideya konsepsiyası müharibə zamanı yaradılmış fotomaterialların yalnız informativ xarakter daşımasını deyil, həm də estetik, emosional və sənədli dəyər kəsb edən mədəni mənbə kimi təqdim olunmasını əsas götürür. Bu təşəbbüs çərçivəsində cəbhə xəttində çəkilmiş unikal fotolar nümayiş etdirilir və müəlliflərin şəxsi təəssüratları ictimaiyyətlə paylaşılır. Fotoarxivlərin ictimai nümayişi milli kollektiv yaddaşın qorunması, sənədli mədəni irsin vizual rekonstruksiyası və cəmiyyətin emosional həmrəyliyinin gücləndirilməsi baxımından mühüm funksional əhəmiyyət kəsb edir. Beləliklə, “Cəbhədən xəbərlər” layihəsi fotojurnalistikanın sənədli, estetik və ideoloji səviyyələrdə milli identiklik və mədəni davamlılıq sistemində oynadığı rolu nümayiş etdirən kulturoloji hadisə kimi qiymətləndirilə bilər [3].

2020-ci ildə əldə olunmuş Qarabağ Zəfəri yalnız siyasi və hərbi nəticələrdən ibarət olmayıb, eyni zamanda milli qürurun, dövlətçilik təfəkkürünün və mənəvi həmrəyliyin yenidən bərpası baxımından dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu qələbə həmçinin milli-mənəvi dəyərlərin ideoloji reaktivləşdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi və tarixi-mədəni bilincin formalaşdırılması üçün fundamental əhəmiyyət kəsb edən hadisədir. Bu kontekstdə İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşəbbüsü ilə təşkil edilən "Zəfər Günü" rəsm müsabiqəsi, pedaqoji, estetik və mədəni-tərbiyəvi funksiyaları birləşdirən kompleks sosial-mədəni layihə kimi çıxış etmişdir. Müsabiqənin keçirilməsi azyaşlı iştirakçılar arasında Qarabağ Zəfərinin bədii-fəlsəfi və simvolik təcəssümünü təmin etməklə onların milli kimlik, vətəndaşlıq şüuru və estetik təfəkkürünün inkişafına xidmət etmişdir. Uşaq yaradıcılığı vasitəsilə tarixi hadisələrin bədii-emotiv ifadəsi, milli yaddaşın formalaşma prosesində sənət vasitələrinin mədəni inteqrasiya funksiyasını gücləndirir və kollektiv identikliyin emosional-bədii təzahürünü reallaşdırır. Beləliklə, müsabiqə həm estetik tərbiyənin, həm də vətənpərvərlik yönümlü sosiallaşmanın strateji platforması kimi çıxış etmişdir. İştirakçıların diplom və hədiyyələrlə mükafatlandırılması, qalib əsərlərin isə iki gün müddətində Bakı Xan Sarayı Kompleksinin parkında fəaliyyət göstərən Art Zona sərgi məkanında nümayiş etdirilməsi, uşaq rəsmlərinin ictimai təqdimatı vasitəsilə gənc nəslin milli yaddaş sisteminə mədəni inteqrasiyasını təmin etmiş, Zəfər mövzusunun estetik və emosional təcəssümünün kollektiv şüurda möhkəmləndirilməsinə töhfə vermişdir. Nəticə etibarilə, "Zəfər Günü" rəsm müsabiqəsi milli mədəni siyasətin, mədəni diplomatiyanın və vətənpərvərlik tərbiyəsinin sintezini əks etdirən sosial-mədəni fenomen kimi qiymətləndirilə bilər [7].

8 Noyabr – Zəfər Günü münasibətilə İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən təşkil edilmiş "Əbədi Zəfər" tədbiri Azərbaycan xalqının tarixi Qələbəsinin mədəni, ideoloji və mənəvi aspektlərinin ictimai şüurda möhkəmləndirilməsinə yönəlmiş strateji-humanitar təşəbbüs kimi xüsusi elmi əhəmiyyət kəsb edir. Tədbir milli yaddaşın kulturoloji səviyyədə qorunmasına, şəhidlik institutunun mənəvi dəyərlər sistemindəki yerinin vurğulanmasına və milli kimliyin estetik ifadə vasitələri ilə təcəssümünə xidmət etmişdir. Mərasim Vətən uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanmış, bununla milli birliyin, dövlət atributlarının və qəhrəmanlıq yaddaşının sintezini ifadə edən rəmzi-ideoloji çalar əldə olunmuşdur. Tədbirin konseptual mətnini təşkil edən zəfərlə bağlı videoçarx isə Azərbaycan xalqının azadlıq mübarizəsinin tarixi xronologiyasını sənədli-kulturoloji mətn kimi təqdim etmiş, ictimai şüurda Zəfərin ideoloji mahiyyətini dərinləşdirmişdir. Tədbirin bədii hissəsi Vətən müharibəsi iştirakçılarının və mədəniyyət

nümayəndələrinin iştirakı ilə həyata keçirilmiş, fərdi xatirənin ictimai diskursla kəsişdiyi nöqtədə formalaşan bədii-emosional təcrübə nümunələri nümayiş olunmuşdur. Bu təcrübələr milli yaddaşın formalaşmasında fərdi xatirənin mədəni ifadə vasitələrinə çevrilməsi və kollektiv identikliyin emosional-bədii təzahürü baxımından xüsusi semantik əhəmiyyət kəsb etmişdir. Tədbirin yekun mərhələsində işğaldan azad edilmiş ərazilərdə dövlət tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərinə həsr olunmuş videoçarx nümayiş etdirilmiş, Zəfər Gününün yalnız hərbi-siyasi qələbə deyil, həm də mədəni dirçəliş, sosial yenidənqurma və mənəvi restavrasiyanın kompleks prosesi kimi interpretasiya oluna biləcəyini təsdiqləmişdir. Nəticə etibarilə, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkil etdiyi "Əbədi Zəfər" tədbiri, ictimai yaddaşın institusional qorunması, milli kimliyin elmi və bədii səviyyədə təcəssümü və mədəni siyasətin davamlılığının təmin edilməsi baxımından mühüm kulturoloji əhəmiyyət daşıyır [4].

İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Zəfər Gününə həsr olunmuş tədbirlər kompleksi yalnız tarixi hadisənin anım mərasimi funksiyasını daşımır, o, eyni zamanda milli-mənəvi dəyərlərin reaktivasiya olunması, vətənpərvərlik şüurunun təşəkkülü və kollektiv yaddaşın institusional davamlılığının təmin edilməsi məqsədilə formalaşdırılmış mədəni strategiyanın inteqral komponenti kimi çıxış edir. Tədbirlər sisteminin konseptual strukturu elmi-maarifləndirici fəaliyyətin, sənədli-estetik ifadə formalarının və sosial-humanitar təşəbbüslərin qarşılıqlı inteqrasiyası ilə xarakterizə olunur və bu, onların yalnız informativ deyil, həm də ideoloji və estetik funksiyalarını vurğulayır. Bu təşəbbüslər göstərir ki, Azərbaycanda Zəfər Gününün qeyd olunması təkcə bayram xarakteri daşımır, o, həm də milli identikliyin, dövlətçilik ideologiyasının və ictimai-mənəvi həmrəyliyin simvolik və performativ platforması kimi qəbul edilməlidir. Ümumiyyətlə, İçərişəhər Qoruğu İdarəsinin həyata keçirdiyi mədəni proqramlar Zəfər konseptinin bədii, elmi və sosial-fəlsəfi səviyyədə təcəssümünü təmin edən kompleks kulturoloji hadisə kimi elmi təhlilə cəlb oluna bilər.

**Nəticə və təkliflər**

Aparılmış tədqiqat göstərir ki, Zəfər Gününün İçərişəhər mədəni mühitində təqdimatı yalnız memorial mahiyyət daşımır, eyni zamanda Azərbaycan xalqının milli kimliyinin və kollektiv yaddaşının bərpası, yenidən formalaşdırılması və gələcək nəsillərə ötürülməsi prosesində strateji-fəlsəfi vasitə funksiyasını yerinə yetirir. İçərişəhər Qoruğu tərəfindən reallaşdırılan "Əbədi Zəfər" layihəsi, "Cəbhədən xəbərlər" sənədli tədbiri və "Zəfər Günü" rəsm müsabiqəsi kimi təşəbbüslər milli ideya, estetik təfəkkür və ictimai dəyərlərin mədəni təzahür formalarını birləşdirən çoxsəviyyəli kulturoloji hadisələr sistemi kimi çıxış edir. Təhlil nəticəsində müəyyən edilmiş əsas aspektlər aşağıdakı kimi ümumiləşdirilə bilər:

–Mədəni və ideoloji təqdimat: İçərişəhər Qoruğu tərəfindən təşkil edilən tədbirlər kompleks kulturoloji hadisələr sistemi kimi qiymətləndirilir, onlar milli ideya, estetik təfəkkür və ictimai dəyərlərin mədəni təzahürünü birləşdirir;

–Kollektiv yaddaşın institusional qorunması: Tədbirlər fərdi yaddaş və ictimai diskursu inteqrasiya edərək kollektiv yaddaşın institusional səviyyədə möhkəmləndirilməsinə xidmət edir, burada tarixi xronologiyalar, sənədli materiallar və bədii ifadələr milli yaddaşın həm əqli, həm də emosional aspektlərinin qorunmasını təmin edir;

–Mədəni irsin ideoloji potensialı: İçərişəhər kimi mədəni irs məkanları yalnız keçmişin qorunması ilə məhdudlaşmır, onlar milli yaddaşın daşıyıcısına və dövlətin mədəni siyasətinin davamlılığını təmin edən strateji vasitəyə çevrilir. Beləliklə, Zəfər Gününün təqdimatı həm mədəniyyətin ideoloji semantikasını, həm də kollektiv yaddaşın estetik konstruksiyasını birləşdirən sosial-fəlsəfi proses kimi qiymətləndirilə bilər;

–Praktiki və pedaqoji əhəmiyyət: Rəsm müsabiqəsi və foto-sərgilər gənc nəslin milli kimlik, vətəndaşlıq şüuru və estetik təfəkkürünün formalaşmasına xidmət edir, eyni zamanda mədəni diplomatiya və ictimai maarifləndirmə platforması rolunu oynayır;

–Elmi və metodoloji əhəmiyyət: Tədqiqat kulturoloji, semiotik və sosial-fəlsəfi metodların inteqrasiyasını nümayiş etdirərək Zəfər Gününün mədəni, ideoloji və ictimai funksiyalarının sistemli və çoxşaxəli təhlilinə imkan yaratmışdır.

İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Zəfər Gününə həsr olunmuş tədbirlərinin davamlı və sistemli xarakter alması məqsədilə bu tədbirlər, çıxışlar və sənədli materiallar elmi metodologiya əsasında sistemləşdirilərək arxivləşdirilməsi və toplu nəşrlər şəklində təqdim edilməsi, eyni zamanda mövcud sərgi və ekspozisiya proqramlarında Zəfər mövzusuna dair xüsusi bölmələr və vizual təqdimatlar vasitəsilə ziyarətçilərə mədəni yaddaş ardıcıl, konseptual və estetik kontekstdə təqdim olunması məqsədəuyğundur. Belə yanaşma həm gələcək mədəni və elmi layihələr üçün sabit baza formalaşdıracaq, həm də Zəfər konseptinin milli mədəni irs sistemində institusional və davamlı mövqeyini təmin edəcəkdir.

Nəticə etibarilə, Zəfər Gününün İçərişəhər nümunəsində təqdimatı mədəniyyətin ideoloji, estetik və sosial-fəlsəfi səviyyələrini birləşdirən kompleks kulturoloji proses kimi qiymətləndirilə bilər və bu təcrübə milli kimliyin, dövlətçilik ideyasının və kollektiv yaddaşın institutlaşmasında strateji rol oynayır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / Azərbaycan Respublikası

Prezidentinin rəsmi internet saytı. – Bakı, 2020. URL:https://president.az/az/articles/view/48455

2. Cəfərli R., Zəfər salnaməsi. Azərbaycan tarixinin 44 şərəf günü // Azərbaycan qəzeti. – 2021, 30 yanvar. - s.1; 5 : [Elektron resurs]. URL:https://www.anl.az/down/meqale/azerbaycan/2021/yanvar/732732.htm
3. Fotoqrafiya Evində “Cəbhədən xəbərlər” adlı tədbir keçirilib [Elektron resurs] / İçərişəhər DTMQ İdarəsinin rəsmi internet səhifəsi. – Bakı, 2021. URL:http://icherisheher.gov.az/az/news/391
4. İçərişəhərdə “Əbədi Zəfər” adlı tədbir təşkil olunub: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi rəsmi internet səhifəsi. – Bakı, 2024. URL:https://azertag.az/xeber/icheriseherde_ebedi_zefer_adli_tedbir_teskil_olunub-3266092
5. 44 günlük Zəfər salnaməsi: [Elektron resurs] /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının rəsmi internet səhifəsi. – Bakı. URL:https://files.preslib.az/projects/zefer/az/xronika.pdf
6. 8 Noyabr - Zəfər Günü: (metodik vəsait) / tərt.ed. A.Məmmədov - Bakı, 2021. - 55 s.
7. “Zəfər Günü” adlı rəsm müsabiqəsi: [Elektron resurs] / İçərişəhər DTMQ İdarəsinin rəsmi internet səhifəsi. – Bakı, 2021. URL:https://icherisheher.gov.az/az/393-news-detail/
8. Zəfər Günü və Dövlət Bayrağı Gününə həsr edilmiş tədbirlər keçirilib: [Elektron resurs] / Qoruqları İdarəetmə Mərkəzinin rəsmi internet səhifəsi. – Bakı. URL:https://www.heritage.org.az/news/zefer-gunu-ve-dovlet-bayragi-gunune-hesr-edilmis-tedbirler-kecirilib?utm_source=chatgpt.com

## MECHANISMS OF THE CULTURAL REPRESENTATION OF VICTORY DAY AND THE ROLE OF ICHERISHEHER IN SHAPING PUBLIC MEMORY

**G.F. Nazarova**
Azerbaijan University, Jeyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract:** This article analyzes the cultural presentation forms and the place of Victory Day in public memory from a culturological perspective. Victory Day, celebrated as the symbolic end of the 44-day Patriotic War in 2020 which resulted in the restoration of Azerbaijan's territorial integrity, is a crucial event in shaping modern national identity and collective memory. The research's goal is to determine Victory Day's role in the reconstruction

of national-cultural memory and the symbolic embodiment of historical experiences. The analysis shows that this day is not only a triumph of military victory but also a significant stage in the process of restoring public solidarity, national pride, and cultural identity. Presenting this day in historical locations like Icherisheher significantly contributes to stabilizing the socio-cultural identity.

**Keywords**: Victory Day, Icherisheher, public memory, cultural presentation, culturological analysis, national identity.